**Veysəl Seyfəl oğlu Əyyubov**

**Zaur Veysəl oğlu Əyyubov**

**UOT 330.34; 330.35; JEL: E02; E20.**

# Azərbaycan milli iqtisadiyyatının davamlı inkişafının strateji hədəfləri "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" kontekstində

***Xülasə***

*Məqalədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2 fevral 2021-ci il tarixli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" ölkənin sosial-iqtisadi inkişaf strategiyasını və onun müəyyən etdiyi hədəfləri təsdiq edən, cəmiyyətin siyasi və mədəni həyatına, vətəndaşların rifah halının daha da artırılmasına yeni impulslar verəcək konsepsiya kimi qiymətləndirilir. Azərbaycan milli iqtisadiyyatının davamlı inkişafının strateji hədəfləri Azərbaycan Respublikasının müasir inkişaf mərhələsində "Ümumi rifah dövləti" statusunu və intensiv inkişaf edən cəmiyyət imicini qoruyub saxlaması məqalədə əsas motivlər kimi ön plana çəkilmişdir. Milli iqtisadiyyatımızın uğurlu inkişafını təmin etməyə istiqamətlənmiş prinsiplər - sosial-demokratiya, iqtisadi plüralizm və hakimiyyətin himayəyə götürdüyü azad sahibkarlıq məqalədə sosial-iqtisadi tərəqqinin əsas lokomotivləri kimi təqdim olunmuş, strateji hədəflərin məzmununu təşkil edən bir sıra vacib komponentlər xüsusi olaraq vurğulanmışdır.*

***Açar sözlər:** milli iqtisadiyyat, davamlı inkişaf, strateji hədəflər, milli prioritetlər, sosial-iqtisadi trendlər, milli doktrina, sosial rifah, sosial siyasət, yeni iqtisadi siyasət.*



## Giriş

Müasir dünyada cərəyan edən mütərəqqi tendensiyalar içərisində davamlı iqtisadi inkişafın təmin edilməsinə istiqamətlənmiş strateji hədəflərin müəyyənləşdirilməsi və bu sahədə müxtəlif qərarların, layihələrin və yol xəritələrinin qəbul olunması müstəsna əhəmiyyət kəsb edir. Dövlətlərin iqtisadi təhlükəsizliyini təmin edən bu tendensiyalar yaxın gələcəkdə sosial-iqtisadi inkişafa dair milli prioritetləri formalaşdırmağa və qlobal iqtisadi trendlərin tələblərinə uyğun proqressiv atmosfer yaratmağa imkan verir. Sosial-iqtisadi inkişafa dair milli prioritetlərin dəqiq müəyyən edilməsi ölkənin milli doktrinasının və milli ideyasının reallaşdırılmasında xüsusi rol oynayır. Bu gün dünyada baş verən sosial-iqtisadi trendlər və onların fonunda informasiya-kommunikasiya texnologiyalarınınn fəal yaradıcı gücünə əsaslanan qlobal cəmiyyətin qurulması smart avadanlıqların, "nou-hau"ların və süni intellektin iştirakı ilə idarə olunan və tənzimlənən həyat ukladının bərqərar edilməsi postindustrial inkişaf mərhələsinə keçidin başlıca göstəriciləri kimi təzahür edir. Belə şəraitdə davamlı iqtisadi inkişafın və onunla bağlı sosial rifahın müasir dövrün tələblərinə və standartlarına uyğun yüksək səviyyəyə qaldırılması, cəmiyyətin layiqli həyatının təmin edilməsi fövqəladə şəkildə aktuallaşmışdır. Ölkənin davamlı və sağlam reproduksiyası üçün son dərəcə vacib əhəmiyyət kəsb edən iqtisadi inkişaf təkrar istehsalın daim genişlənməsi, müsbət keyfiyyət və davamlı struktur dəyişmələri, islahat xarakterli yeniliklərlə müşayiət olunan məhsuldar qüvvələrdə, elmdə, təhsildə, mədəniyyətdə, insanın həyat tərzində, insan kapitalında baş verən yüksəliş və tərəqqidir. Davamlı iqtisadi inkişaf özündə ictimai, siyasi və mədəni münasibətlər dəstini tərənnüm edir. Sözügedən proses insan həyatının keyfiyyətinin yaxşılaşmasında, onun həyat səviyyəsinin yüksəlməsində, azadlıq və özünəhörmət hisslərinin durmadan artmasında ifadə olunur. Davamlı iqtisadi inkişafın effektivliyi iqtisadiyyatın dövlət

*©Veysəl Seyfəl oğlu Əyyubov i.e.d.,prof., Zaur Veysəl oğlu Əyyubov i.f.d.Mingəçevir Dövlət Universiteti*
*E-mail: eyyubovveysel@yahoo.com*
*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

tənzimlənməsinin səviyyəsindən, dövlətin özünün və onun institutlarının səmərəli fəaliyyətindən asılıdır.

**Azərbaycanın milli iqtisadiyyatının davamlı inkişafı**

Əsasları hələ XX əsrin 90-cı illərində və XXI əsrin əvvəlində ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycan iqtisadiyyatı son illərdə yüksək templərlə inkişaf etmiş, həyata keçirilən iqtisadi islahatlar yüksək bəhrəsini vermişdir. 1993-cü ilin iyununda ulu öndər Heydər Əliyevin böyük siyasətə qayıdışı və Azərbaycan Respublikasına ikinci dəfə rəhbərlik etməsi Azərbaycan tarixində yeni bir eranın başlanğıcı oldu. Xalqın sosial-iqtisadi həyatında baş verən dinamik inkişaf templəri o dövrün pozitiv mahiyyətini müəyyən edən əsas amilə çevrildi və sosial-iqtisadi problemlərdən əziyyət çəkən insanların həyatına qurtuluş müjdəsi kimi daxil oldu. Bu dövrdən etibarən Azərbaycan Respublikasının və Azərbaycan hökumətinin həyata keçirdiyi sosial siyasətin məzmununu və təyinatını cəmiyyətin rifah halının durmadan yaxşılaşdırılması istiqamətində reallaşdırılan möhtəşəm tədbirlər təşkil edir. Ulu öndərin yeni nəsillərə miras qoyduğu mükəmməl iqtisadi inkişaf kursunu 2003-cü ildən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev daha aktiv templərlə reallaşdırmağa başladı. Heydər Əliyev tərəfindən əsası qoyulan yeni iqtisadi siyasətin fundamental prinsiplərinə sadiq qalan Prezident İlham Əliyev regionların inkişafına və tərəqqisinə xüsusi diqqət ayırdı. Artıq Azərbaycan Respublikasının iqtisadi siyasətinin prioritetləri və perspektivləri son dərəcə pozitiv bir mənzərə yaradır və cəmiyyətə yüksək təşəkküllü rifah vəd edirdi. 2004-cü ildən başlayaraq Azərbaycan Respublikası Prezidentinin Sərancamları ilə təsdiq edilən regionların sosial-iqtisadi inkişafına dair dörd Dövlət Proqramlarının reallaşdırılması nəticəsində regionlarda möhtəşəm tikinti-quruculuq işlərinin yerinə yetirilməsinə, yeni sənaye müəssisələrinin inşasına, kənd təsərrüfatının, fermerlərə real dəstək və yardım göstərilməsinə, yaşayış məntəqələrində əlverişli və müasir tələblərə cavab verən yeni infrastrukturun yaradılmasına nail olundu. Qısa müddət ərzində paytaxtda və regionlarda möhtəşəm işlər görüldü və bu proses bu gün də çox uğurla davam etməkdədir.



Ölkənin sosial-iqtisadi inkişafını nəzərdə tutan dövlət proqramları içərisində Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2012-ci il tarixli Fərmanını xüsusi qeyd etmək lazımdır. Bu fərman “Azərbaycan 2020: Gələcəyə baxış” inkişaf konsepsiyasını nəzərdə tuturdu. Bu inkişaf konsepsiyasının müddəaları bu gün yüksək səviyyədə reallaşdırılmış və ölkəmizin sosial-iqtisadi həyataında çox möhtəşəm yeniliklər baş vermişdir. Hər bir ölkənin iqtisadi inkişafının əsas göstəricisi kimi “İnsan inkişafının indeksi” (ing. Human Development Index) və adambaşına düşən “milli gəlir”, yaxud ÜDM çıxış edir. İqtisadi inkişafın başlıca hərəkətverici qüvvəsi rolunu isə insan kapitalı və onun yaratdığı innovasiyalar oynayır. İnsan kapitalı özündə intellektual prioritetləri, sosial-siyasi inkişaf səviyyəsini, millətin təbii potensialının çoxlu sayda əlamətlərini əks etdirir. Beləliklə, sosial-iqtisadi inkişaf amili müasir cəmiyyətdə tənzimləyici element kimi təzahür edir. Onun yüksək səviyyədə olmasından isə həm vətəndaş həmrəyliyi, həm də sosial-siyasi və mədəni münasibətlərin keyfiyyəti asılıdır. Bu gün cəmiyyətin sosial-iqtisadi inkişafı ilə bağlı prioritetlərini “Ümumi rifah dövləti” (İng. Welfare state) konsepsiyasının prinsipləri və normaları üzərində quran Azərbaycan Respublikası ölkə iqtisadiyyatının davamlı inkişafının strateji hədəflərini dəqiq şəkildə müəyyən etmiş, sosial-iqtisadi tərəqqinin təmin olunması üçün əhəmiyyətli sənədlərə və layihələrə imza atmışdır. Belə layihələrdən biri də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2 fevral 2021-ci il tarixli Sərəncamla təsdiq etdiyi “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” haqqında tarixi sənəddir. Sözügedən sənəd ilk növbədə, Azərbaycan Respublikasının yeni inkişaf mərhələsində “Ümumi rifah dövləti” statusunu və “intensiv inkişaf edən cəmiyyət” imicini daim qoruyub saxlamağa istiqamətlənmişdir. Milli dövlətimizin sosial-iqtisadi inkişaf strategiyasını müəyyən edən bu

sənəd həm də bir siyasi konsepsiyadır. Onun leytmotivləri isə vətəndaşların sosial-iqtisadi rifahının təmin edilməsi işində, inkişafında və müdafiəsində dövlətin müstəsna rolunu nəzərdə tutur. Bu konsepsiya demokratiyanın, iqtisadi plüralizmin və azad sahibkarlığın vəhdətindən ibarət spesifik dəyərlər sistemi kimi təzahür edir. Onun prinsipial məzmununu isə aşağıdakı vacib komponentlər təşkil edir:

- Əhalinin sosial müdafiəyə ehtiyacı olan təbəqələrinə (işsizlər, təqaüdçülər, əlillər) dəstək.
- İnsanların əməyinin və sağlamlığının müdafiəsi.
- Gəlirlərin bərabər bölüşdürülməsi ilə sosial bərabərsizliyin aradan qaldırılması.
- Ailənin, onun üzvlərinin – ananın, atanın və uşaqların müdafiəsi.
- Elm, təhsil, mədəni və iqtisadi proqramlara davamlı maliyyə dəstəyi.
- Sosial problemlərlə intensiv mübarizə.

**Azərbaycan milli iqtisadiyyatının davamlı inkişafının strateji hədəfləri**

Azərbaycan Respublikası "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" adlı proqramı qəbul etməklə ölkənin və cəmiyyətin keyfiyyətcə yeni inkişaf fazasına qədəm qoymasını təsdiq etdi və iqtisadi inkişaf templərinin yüksək tərzdə davam etdirilməsinə, iqtisadi münasibətlərin liberallaşdırılmasına, beynəlxalq ticarət-iqtisadi əlaqələrin, bazar iqtisadiyyatı mexanizmlərinin yeni dövrün tələblərinə uyğun inkişaf etdirilməsinə və ölkə daxilində sabit vətəndaş birliyinin formalaşdırılmasına sadiq qaldığını sübut etdi. Bu gün Azərbaycan Respublikasında həyata keçirilən düzgün və fəal iqtisadi siyasət onun daxili sosial-siyasi mühitini modernləşdirmiş, dövlət və cəmiyyət həyatını demokratikləşdirmiş, ictimai həyatın sosial-mədəni və əxlaqi-mənəvi sferalarını yeniləşdirmiş, vətəndaş cəmiyyəti təsisatlarını formalaşdırmış və onları müasir dövrün tələblərinə maksimum uyğunlaşdırmışdır. Avropa dəyərlərinə, dünyəvi-hüquqi dövlət quruculuğu yoluna üstünlük verməsi, vətəndaşlarının təhsil, mədəni və intellektual səviyyəsini yüksəltməsi kimi amillər ölkəmizin planetar miqyasda iqtisadi-mədəni əhəmiyyətini, onun siyasi və diplomatik imicini təsdiq etmiş, qlobal siyasətdə ölkəmizin aktiv rolunu və əhəmiyyətini fövqəladə şəkildə artırmışdır. 2019-cu ilin sonu 2020-ci ilin əvvəllərində dünyada misli görünməmiş ajiotaj yaradan COVİD 19 pandemiyası bəşəriyyətin ənənəvi həyatına çox sayda məhrumiyyətlər gətirdi, qlobal iqtisadiyyatın inkişaf templərinə çox ciddi ziyan vurdu, sosial-iqtisadi proseslərin gedişini xeyli ləngitdi. Buna baxmayaraq "Dördüncü sənaye inqilabı" (ing. The Fourth İndustrial Revolution) kimi xarakterizə olunan qlobal inkişaf tendensiyaları bu gün var gücü ilə cərəyan edir və bu proses tarixdə misli görünməmiş elmi-texniki trendlərlə müşayiət olunur. "İndustriya 4.0" adı almış bu proses informasiya-kommunikasiya texnologiyalarının ən yeni və mütərəqqi nəsllərinin istehsalatda və insan fəaliyyətinin bütün sahələrində geniş tətbiqini nəzərdə tutur. Bu şəraitdə özündə meritokratiya prinsiplərini ehtiva edən texnokratiya qlobal cəmiyyətin bütün sahələrində təşəbbüsü ələ alır, postindustrial cəmiyyətin qurulması kimi möhtəşəm layihə reallığa çevrilir, müasir innovasiya sektorunda və yüksək məhsuldarlığı ilə seçilən sənaye istehsalında biliyin və nanotexnologiyaların həlledici rol oynadığı supermüasir cəmiyyət qurulur.

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" adlı proqramın məhz 2021-ci i ilin əvvəlində qəbul edilməsi və növbəti 10 il üçün nəzərdə tutulması Müzəffər Ali Baş Komandanımızın qətiyyəti, rəşadətli Azərbaycan Əsgərinin şücaəti sayəsində əldə olunan Tarixi Zəfərdən sonrakı mərhələnin və postpandemiya dövrünün reallıqları nəzərə alınmaqla milli iqtisadiyyatın inkişaf strategiyasının hədəflərini müəyyən etmək, qarşıda duran 10 il ərzində müasir Azərbaycan Respublikasının davamlı, dayanıqlı və



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

şaxələndirilmiş iqtisadi inkişafının yeni industrial fazaya çıxarılmasını təmin etmək istiqamətində konkret layihələrə sahib olmaq ideyasına xidmət edir. Yeni milli iqtisadiyyatın inkişaf strategiyasının ana xəttini "Qüdrətli Dövlət və Yüksək Rifah Cəmiyyəti"nin qurulması təşkil edir. Bu ideyanın həyata keçirilməsi məqsədi ilə növbəti onillikdə ölkənin inkişafına dair aşağıdakı beş Milli Prioritetin reallaşdırılması nəzərdə tutulmuşdur [1]:

- Dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat;
- Dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət;
- Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı;
- İşğaldan azad olunmuş ərazilərə böyük qayıdış;
- Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi.

Qeyd edilən Milli Prioritetlər, eyni zamanda, Birləşmiş Millətlər Təşkilatının "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"dən irəli gələn vəzifələrin icrası istiqamətində də xüsusi diqqət cəlb edir. Beləliklə, Milli Prioritetlərin başlıca hədəfləri yüksək rəqabətqabiliyyətli və inklüziv iqtisadiyyatın bərqərar edilməsini nəzərdə tutur. Son 18 ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən yüksək təşəkküllü iqtisadi siyasətin məntiqi nəticəsidir ki, artıq sosial-siyasi və iqtisadi-mədəni sahələrdə inkişafın tarixi dönüş mərhələsi çoxdan arxada qalmış və Azərbaycan Respublikası postindustrial quruculuq dövrünə qədəm qoymuşdur. İnnovasiya texnologiyalarına əsaslanan Azərbaycan Respublikasının iqtisadi sistemi ölkənin enerji və ərzaq təhlükəsizliyini yüksək səviyyədə təmin etməklə yanaşı ən yeni hərbi texnika və texnologiyalarla təchiz olunmuş və hər hansı təcavüzə layiqli cavab verməyə qadir müzəffər hərbi qüvvələrin yaradılmasını da təmin etmişdir. Bu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 18 il ərzində həyata keçirdiyi müdrik siyasətin məntiqi nəticəsidir. Bu gün artıq Azərbaycan kosmik texnologiyaların mənimsənilməsi və geniş istismarını həyata keçirən dünya ölkələrindən birinə çevrilib. 2020-ci il sentyabrın 27-də Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi məqsədi ilə başlanılan haqq savaşında kosmik texnologiyalar da müstəsna rol oynamışdır. Dövrün aparıcı texnologiyaları ilə və ən müasir silahlarla təchiz edilmiş rəşadətli Azərbaycan əsgəri müzəffər Ali Baş Komandanının rəhbərliyi altında bütün dünyanın gözü qarşısında təcavüzkara tarixi dərs verdi. Milli iqtisadiyyatımızın yeni texnologiyalar əsasında qurulmuş qüdrətindən, onun davamlı artım templərindən, əqli və fiziki baxımdan sağlam insan resurslarından güc alan Azərbaycan ordusu ən müasir döyüş strategiyasını və taktikasını yaxşı bilən tədbirli hərb maşını kimi artıq bütün dünyada dillər əzbəri olmuşdur. O, son dərəcə çətin və mürəkkəb dağ şəraitində düşmən ordusu haqqında sərsəm mifləri, müharibə və hərb sənəti haqqında mövcud olan stetreotipləri sındırıraraq xariqələr yaratdı. Bu Ordu özünün müzəffər Ali Baş Komandanı möhtərəm İlham Əliyevin rəhbərliyi altında milli tariximizin şanlı səhifələrindən birini yazdı.



Bu gün regionların sosial-iqtisadi inkişafını müasir dünya standartlarına uyğun şəkildə təmin etmək üçün bölgələrdə çoxlu sayda möhtəşəm layihələr həyata keçirilmişdir. Bu layihələr içərisində tam gücü ilə işləyən "Texnopark", "ASAN Xidmət", "Olimpiya kompleksi", "Ağıllı kənd" və "Ağıllı şəhər" layihələri, eləcə də ölkənin kənd və rayon tipli inzibati ərazi vahidlərində "Yeni suvarmakanal şəbəkələri layihəsini", "Yeni qazlaşdırma layihəsini", "İçməli su ilə təchizat layihəsini", "Yeni körpülərin və yolların çəkilməsi layihəsini" və başqa layihələri xüsusi qeyd etmək lazımdır. Bunlardan başqa son illərdə strateji, regional, sahəvi, elmi-texniki, ekoloji xarakterli çoxlu sayda Dövlət Proqramları da qəbul edilmişdir. Dövlət Proqramlarının vaxtında icra edilməsinə nəzarət etmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2021-cı il 06 mart tarixli Fərmanı ilə "Dövlət proqramlarının tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsi Qaydası"

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

təsdiq edilmişdir. Sözügedən Dövlət Proqramlarının uğurla icra edilməsi, islahatların dərinləşdirilməsi ölkənin sosial-iqtisadi inkişafına çox güclü təkan vermiş, yüksək, davamlı və dayanıqlı inkişafa nail olunmuşdur. Belə ki, son illərdə iqtisadi inkişafın ümumi göstəricisi olan ÜDM-in artım tempi kifayət qədər yüksək olmuş, 2014-cü ildə 59 mlrd. man., 2015-ci ildə 54.4 mlrd. man., 2016-cı ildə 60.4 mlrd. man., 2017-ci ildə 70.3 mlrd.man., 2018-ci ildə 80.1 mlrd. man., 2019-cu ildə 81.9 mlrd. man., 2020-ci ildə isə məlum pandemiya nəticəsində bir qədər aşağı düşərək 72.4 mlrd. man. olmuş, buna baxmayaraq yəni son 7 ildə ÜDM-in artım tempi 22.7 faizə (son 6 ildə 38.4 faiz) qədər yüksəlmiş, bir nəfərə düşən ÜDM-in həcmi sürətlə artmışdır. Əgər 2014-cü ildə bir nəfərə düşən ÜDM-ın həcmi 6268 man. olmuşdursa, artıq bu göstərici 2016-cı ildə 6266,3 man., 2017-ci ildə 7205 man., 2018-ci ildə isə 8126,2 man., 2019-cu ildə isə 8247 man., 2020-ci ildə 7262.8 man. səviyyəsində olmuşdur. Son 18 il ərzində dinamik inkişaf əsasında ölkə iqtisadiyyatının həcmi 3 dəfədən çox artmış, güclü sosial-iqtisadi infrastruktur yaradılmış, pozitiv demoqrafik artım şəraitində yoxsulluq səviyyəsi və işsizlik əhəmiyyətli dərəcədə azalmışdır. Mövcud maliyyə imkanları maksimum səviyyəyə çatdırılıb və ölkə yuxarı orta gəlirli dövlətlər qrupunda möhkəmlənmişdir.

Yüksək iqtisadi artım tempi eyni zamanda digər makroiqtisadi göstəricilərin dinamikasına da öz təsirini göstərmişdir. Nəticədə, 2019-cu ildə büdcə gəlirləri 24 milyard manat, xərclər isə 24,5 ölmüş, xarici ticarət dövriyyəsinin həcmi 33 milyard dollar səviyyəsinə çatmış, il ərzində ölkə iqtisadiyyatına bütün iqtisadi və maliyyə mənbələri hesabına 24,0 mlrd. man. investisiya qoyulmuşdur. 2020-ci ildə isə büdcə gəlirləri və xərcləri 26,1 milyard manat, xərclər isə 26,4 ölmüş, xarici ticarət dövriyyəsinin həcmi 24,5 milyard dollar səviyyəsinə çatmış, il ərzində ölkə iqtisadiyyatına bütün mənbələr hesabına 22,3 mlrd. man. investisiya qoyulmuşdur ki, bunun da təxminən yarısını daxili investisiyalar təşkil etmişdir. Son dövrlərdə ölkənin dünya təsərrüfatında rolu xeyli dərəcədə artmış, reytinq qabiliyyətlilik indeksi nəzərə çarpacaq dərəcədə yüksəlmişdir. Təsadüfü deyildir ki, Ümumdünya İqtisadi Forumunun (Davos Forumu) hesabatlarına görə son illərdə Azərbaycan rəqabət qabiliyyətlilik və investisiyaya açıqlıq reytinqinə, biznes mühitinə görə dünya ölkələri arasında birinci otuzluqda qərar tutmuşdur. Hazırda beynəlxalq təşkilatların reytinqində Azərbaycan rəqabət qabiliyyətliliyə görə ənənəvi olaraq orta səviyyədən yuxarı ölkələr sırasına aid edilir.

Qeyd etmək lazımdır ki, son illərdə dövlətin iqtisadi siyasətində qeyri-neft sektorunun inkişaf etdirilməsi konsepsiyası öz müsbət nəticələrini göstərməkdədir. Aparılan araşdırmalar göstərir ki, 2006-2008-ci illərdə ÜDM-n tərkibində qeyri-neft sektorunun xüsusi çəkisi təxminən 40 faizdən aşağı olduğu halda, 2009-cu ildən başlayaraq qeyri-neft sektorunun xüsusi çəkisi artmağa başlamışdır. Belə ki, 2014-cü ildə ÜDM-də qeyri-neft sektorunun xüsusi çəkisi 44,4 %, 2015-ci ildə 48,3 %, 2016-cı ildə 52,7 %, 2017-ci ildə 56,6 %, 2018-ci ildə 61,0 %, 2019-cu ildə isə 65,9 %, 2020-ci ildə isə 66.2 %-ə bərabər olmuşdur. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev 2020-ci ilin yekunlarına həsr olunmuş videoformatda keçirilən müşavirədə qeyd etmişdir: “Dünya Bankının “Doing Business” hesabatında, – 190 ölkə arasında Azərbaycan 28-ci yerdədir, Azərbaycan 10 ən islahatçı ölkə sırasına daxil edilmişdir. Əhalinin elektrik təchizatı səviyyəsi - dünya üzrə Azərbaycan ikinci yerdədir. Hökumətin dəyişməyə cavabdehliyi, yəni ki, islahatçı obrazı əmsalına görə Azərbaycan dünya miqyasında beşinci yerdədir. Hökumətin uzunmüddətli strategiyası – Azərbaycan 10-cu yerdədir. Hökumətin siyasi sabitliyi təmin etməsi ilə bağlı respublikamız 11-ci yerə sahibdir. İnfrastruktur layihələri ilə bağlı – dəmir yolu xidmətlərinin səmərəliliyi 11-ci yerdədir. Hava yolları xidmətlərinin səmərəliliyi ilə bağlı – 12-ci yerdə, avtomobil yollarının keyfiyyətinə görə isə 24-27-ci yerlərdəyik. İnklüziv inkişaf indeksi üzrə



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Azərbaycan üçüncü yerdədir Bütün bu hesablamalar inkişaf etməkdə olan 74 ölkə arasında aparılmışdır. [2].

Hazırda Azərbaycan xalqının, Azərbaycan dövlətinin və ölkə Prezidenti İlham Əliyevin timsalında Azərbaycan liderinin qarşısında duran ən vacib və təxirəsalınmaz tarixi vəzifə 44 günlük Vətən müharibəsi nəticəsində düşmən işğalından azad edilmiş torpaqlarımızda dinc həyatın bərpası, sosial-iqtisadi tərəqqinin təminatı və 30 il qərib düşmüş doğma yurdlarımızın vahid və bölünməz Azərbaycana qovuşdurulmasıdır. Bu, əlbəttə ki, çox çətin və mürəkkəb prosesdir və xalqimızdan bütün əqli, fiziki və intellektual imkanlarını, dövlətimizdən isə iqtisadi və maliyyə resurslarının səfərbər edilməsini tələb edir. Bu vəzifənin öhdəsindən gəlmək üçün ilkin şərt müharibənin nəticələrinin aradan qaldırılması, erməni silahlı qüvvələrinin son nəfərinə qədər Azərbaycan ərazisindən çıxarılması, düşmən işğalından azad edilən torpaqların minalardan təmizlənməsi, nəhayət, Azərbaycan etnik-linqvistik, hərbi-siyasi və inzibati-idarəçilik faktorunun Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bütün yaşayış məntəqələrində mütləq şəkildə bərqərar edilməsidir. İşğaldan azad edilmiş ərazilərdə dağıdılmış infrastrukturun bərpası, yaxud yenidən qurulması, intensiv məskunlaşdırma və demoqrafik inkişaf bu yerlərin əbədi olaraq Azərbaycan yurdu kimi qalacağına misilsiz zəmanətdir. Müasir dünya standartlarına cavab verən yol infrastrukturunun yaradılması zamanı Qarabağ iqtisadi rayonunun heç bir yaşayış məntəqəsi ümumi yol şəbəkəsindən kənarda qalmamalı, bununla da rayonun bütövlüyü və bölünməzliyi təsdiq edilməlidir. Qeyd etmək lazımdır ki, bu sahədə artıq ilk işlər də görülmüşdür. Uzunluğu 101,5 km olan və Füzuli rayonunun Əhmədbəyli kəndindən Şuşaya qədər uzanan Füzuli-Şuşa avtomobil yolunun, Füzuli Beynəlxalq hava limanının tikintisi başa çatmışdır. Artıq Qarabağı Azərbaycana qovuşdurmaq, vətənin iqtisadi, siyasi və etnik-mədəni vəhdətini təmin etmək üçün doğma ellərə uzanan inkişaf və tərəqqi yollarının qurulması, erməni vandalizminin qurbanı olmuş şəhər və kəndlərimizin inşası, onların enerji təminatının təşkili çox yüksək templərlə baş verir. Qeyd etmək lazımdır ki, Azərbaycanın iqtisadi rayonları içərisində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının təbii sərvətlər, torpaq fondu, turizm və rekreasiya imkanları, həmçinin insan kapitalı və əmək resursları baxımından potensialı daha böyükdür.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında təsərrüfat həyatının əsasən aqrar yönümlü olması ilə əlaqədar burada kənd təsərrüfatı sektorunun aparıcı texnologiyalar əsasında yenidən qurulması xüsusi aktuallıq kəsb edir. Buraya təsərrüfat həyatının durmadan modernləşdirilməsi, təsərrüfatın idarə olunmasına yeni və qabaqcıl texnologiyaların cəlb edilməsi, müasir kooperativ idarəetmə sistemlərinə əsaslanan "ağıllı aqrar təsərrüfat strukturunun" formalaşdırılması daxildir. Belə supermüasir və süni intellektə əsaslanan sistemin yaradılması sözügedən ərazilərə əhalinin kütləvi şəkildə cəlb edilməzinə güclü təkan verəcək, rifaha can atan və layiqli həyat axtarışında olan müasir Azərbaycan insanı üçün fövqəladə stimul yaradacaq, həmçinin, xoşbəxtlik etalonu və arzuolunan reallıq kimi qiymətləndiriləcək. Yaşadığımız bu günlərdə yeni əsrin ilk böyük sınağından şərəflə çıxmış Azərbaycan adını yeni, III minilliyin tarixinə şəhid və qəhrəmanların müqəddəs qanına boyanmış qızıl hərflərlə yazmışdır. Azərbaycan xalqının ruhunda və əməlində baş verən pozitiv dəyişikliklər ölkəmizin və xalqımızın qlobal yeniliklər astanasında olmasından xəbər verir. Tezliklə xalqımızın yaradıcı enerjisi erməni vandalizminin xarabazarlığa çevirdiyi hər kənddə, hər şəhərdə bərqərar olacaq, işğaldan azad olunmuş Qarabağ yenidən çiçəklənəcək.

Bu gün Azərbaycan dünya təsərrüfat sistemində təmsil olunan dövlətlər arasında öz layiqli yerini və iqtisadi çəkisini təsdiq edib. Kiçik bir dövlət beynəlxalq iqtisadi siyasətin müəyyən olunmasında, tək bir ölkənin və regionun deyil, həm də Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində vacib rol oynayır. Yaxın perspektivdə isə ölkəmizin beynəlxalq miqyasda

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

daha da önəmli nailiyyətlərə imza atacağı gözlənilir. Bu baxımdan Azərbaycanın milli iqtisadiyyatının növbəti onillik inkişafında "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in rolunun xüsusi əhəmiyyəti var.

**Nəticə**

Beləliklə, əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş "Ümumi rifah dövləti" bu gün Azərbaycanda tam gücü ilə işləyir. Bu dövlətin fundamental əsaslarını isə imkanların bərabərliyi, sərvətlərin ədalətli bölüşdürülməsi və özünə layiqli həyat səviyyəsi təmin edə bilməyən bütün vətəndaşlar üçün ciddi ictimai məsuliyyətin mövcud olması təşkil edir. Bu gün mütərəqqi düşünən bəşəriyyət, ədaləti müqəddəs dəyər kimi qiymətləndirən və qoruyan insanlar Azərbaycan xalqının və onun müdrik rəhbəri cənab İlham Əliyevin Ümummilli lider Heydər Əliyevdən miras qalmış möhtəşəm idealları necə yüksək əzmlə, rəşadətlə və tükənməz enerji ilə reallaşdırmasının şahidi olur. Hər bir xalqın tarixində tənəzzül və tərəqqi kimi fərqli dönəmlər olur və bu təbiidir. Bu gün isə biz şanlı tariximizin innovasiyalara, dinamik iqtisadi inkişafa və yeni düşüncəyə əsaslnan tərəqqi dövrünü yaşayırıq və bütün varlığımızla inanırıq ki, bu tərəqqi dönməz və əbədi olacaq.

**Ədəbiyyat**

1.Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir.
2.Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin yekunlarına həsr olunmuş videoformatda keçirilən müşavirənin materialları. "Respublika" qəzeti. № 03 (6899), 8 yanvar 2021-ci il.
3.Əyyubov V.S.,Tağıyev A.M. Milli iqtisadiyyatın tənzimlənməsi.Bakı, Avropa nəşriyyatı, 2014,350 s.
4.Davamlı inkişafın milli modeli və strategiyası. Mingəçevir Dövlət Universitetinin Respublika elmi konfransının mmaterialları. 27-28 noyabr 2015-ci il. Mingəçevir. 369 s.
5. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi saytı. www.statgov.az



***Вейсал Сейфал оглу Эюбов***
***Заур Вейсал оглу Эюбов***

***Резюме***

*В статье «Национальные приоритеты по социально-экономическому развитию: Азербайджан 2030», утвержденные Указом Президента Азербайджанской Республики Ильхама Алиева от 2-го апреля 2021-го года, оцениваются как концепция, утверждающая стратегию социально-экономического развития страны и определяемые ею основные цели, способная дать новые импульсы культурной и политической жизни общества и повышению социального благополучия граждан. Стратегические цели по устойчивому развитию национальной экономики Азербайджана, надежная защита статуса «Государства всеобщего благоденствия» и имиджа интенсвно развивающегося общества на новом этапе развития Азербайджанской Республики, как основные мотивы в статье выведены на передний план. Принципы социал-демократии, экономического плюрализма и свободного предпринимательства, взятое под постоянную опеку власти и определяюшие успешное развитие национальной экономики в статье представлены как основные движущиеся силы социально-экономического процветания, а также особо подчеркнуты некоторые важнейшие компоненты, составляющие главное содержание стратегических целей национального государства.*

***Ключевые слова:*** *национальная экономика, устойчивое развитие, стратегические цели, национальные приоритеты, социально-экономические тренды, новая экономическпя политика, социальная политика, социальное благо, национальная доктрина.*

*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

***Veysal Seyfal Ayyubov***
***Zaur Veysal Ayyubov***

***Abstract***

*The article is devoted to the analysis of the historical document entitled "National priorities for socio-economic development: Azerbaijan 2030", approved by the Decree of the President of the Republic of Azerbaijan Ilham Aliyev on April 2, 2021. This important document, which legally approves the strategy of socio-economic development of the Republic of Azerbaijan and determines its main goals is assessed in the article as a concept that can give new impulses to the cultural and political life of society and increase the social well-being of the country's citizens. Strategic goals for the sustainable development of the national economy of Azerbaijan, reliable protection of the status of the "State of General Welfare" and the image of an intensively developing society at a new stage of development of the Republic of Azerbaijan, as the main motives in the article are brought to the fore. The principles of social democracy, economic pluralism and free enterprise, taken under the constant tutelage of the nation state, which determine the successful development of the national economy are presented in the article as the main driving forces of economic and social prosperity, and some of the most important components that make up the content of the strategic goals of the nation state are highlighted.*

***Key words:*** *national economy, sustainable development, strategic goals, national priorities, socio-economic trends, new economic policy, social policy, social welfare, national doctrine.*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 02.12.2021.***
***Çapa qəbul olunub: 06.12.2021.***



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az